**Layihənin istiqaməti: Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği**

№ 126 (1494) 8 iyul 2017-ci il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ

# MUSİQİLİ GÖRÜŞ

## Qəhrəmanı şuşalı və Şuşa idi...

**(əvvəli ötən sayımızda)**

**-Burda hamısını yazmışam. Birini sənə bağışlayacam. Oxuyanda görəcəksən...**

Anlayıram nə demək istədiyini və etiraf edim ki, Bakıya qayıdanda böyük maraqla Tahir müəllimin Niyazi və Xan əmi barəsindəki xatirələrini, Fikrət Əmirov barəsindəki kövrək və səmimi fikirlərini, eləcə də Azərbaycan muğamları, musiqisi barədəki qeydlərini, xüsusilə "Yetim segah" və "Sarı gəlin"lə bağlı inkaredilməz faktlara söykənən elmi düşüncələrini oxuyanda qarşımdakı Tahir müəllimin təkcə insanlığı, ziyalılığı deyil, həm də şuşalılığı, əsl qarabağlı yanaşması əlçatmaz oldu. Bir daha gördüm ki, Tahir Hacı Əzim həqiqətən musiqi fədaisidi, Qarabağ vurğunudu, Şuşa pərvanəsidi.

***DAHA BİR ARAYIŞ***

Asəf Zeynallı adına Musiqi Texnikumunu müvəffəqiyyətlə bitirən Tahir müəllim işləyə-işləyə sənədlərini Üzeyir Hacıbəyov adına Dövlət Konservatoriyasına təqdim etdi və 1958-60-cı illərdə Opera və Balet teatrında, 1962-64-cü illərdə 1 saylı Bakı Musiqi Məktəbində işləməsinə baxmayaraq o, musiqi savadını artırmaq istəyindən geri çəkilmədi.

Maraqlıdı ki, təhsilini başa vurandan sonra, 1965-67-ci illərdə Ağdamda və Şəkidə musiqi nəzəriyyəsindən dərs deyən Tahir müəllim 1967-ci ildə Sumqayıt Musiqi məktəbinə dəvət olunur. Elə həmin ildən də bu musiqi fədaisi ömrünü Sumqayıta bağlayır. Pedaqoq kimi bütün fəaliyyəti həmişə nümunə sayılan Tahir Şamil oğlu vəzifə pillələrini də keçib. Təqaüdə çıxanda o, texnikumun direktoru idi. Amma daşıdığı vəzifələrdən daha çox, o, musiqi araşdırmalarına, musiqini təbliğ etməyə daha çox vaxt və enerji sərf etməyi özünə həyat qayəsi seçmişdi. Elə bu gün də elədi.

- 75 yaşımın tamam olmasına bir neçə gün qalmasına baxmayaraq mən bir gün də olsun musiqidən uzaq dura bilmirəm. Radio dalğalarında, telekanallarda musiqini, musiqili verilişləri izləyirəm. Yanlışlıqları, təhrifləri eşidəndə, görəndə dözə bilmirəm. Dərhal telefona əl atıb musiqi bilicilərinə, redaksiyalara zəng vururam. Gah xahiş, gah tələb edirəm ki, ən böyük sərvətimiz olan musiqimizlə oynamasınlar, zarafat etməsinlər, kiçiltməsinlər, nəyi bacarırlarsa onu ifa etsinlər və bir də bilmədiklərini biləndən soruşsunlar. Axı Cabbarın, Xanın, Sadıxcanın, Qurbanın səsi, barmağı bu gün də diridi, yaşayır, onu necə korlamaq olar? Ona necə qıyırlar, ona necə risq edirlər? Təsəvvür edin ki, Mirzə Mansurun çaldığı muğamın yanından ötüb keçməyə qabiliyyəti olmayanlar efirdə kiçik bir etüd səsləndirib guya muğam çaldıqlarını iddia edirlər və yaxud "Yatim segah"ın adını dəyişib, onu "Xaric segah" kimi təqdim edirlər. Mən başa düşə bilmirəm, yetim sözü bunları niyə qorxudur? Axı "Yetim segah"ın bir adı da elə "Mirzə Hüseyn" segahıdı.

Əgər "Yetim"dən qorxurlarsa, "Mirzə Hüseyn" desinlər. Digər tərəfdən, böyük Əfrasiyab Bədəlbəylinin kitabında da yazılıb ki, mayəsi "Sİ" olan "Xaric segah"ın adı "Yetim segah"dı. Və nəhayət, musiqisevərlərin "Segah İslam" kimi tanıdığı İslam Abdullayev məhz "Yetim segah"ın möhürünü vurub. Üstəlik, musiqiçilər bilirlər ki, "Segah" muğamının Azərbaycanda çox geniş yayılan üç növü var. Yəni, "Segah" və ya "Yetim segah", ikinci "Orta segah" və ya "Zabul segah", üçüncü "Mirzə Hüseyn segahı".

Bax bütün bu növlər Azərbaycanın musiqi bilicilərinin, xüsusilə ünlü bəstəkarlarının yaradıcılığında birmənalı şəkildə qorunmuş və yaşadılmaqdadır, o cümlədən dahi Üzeyirin "Leyli və Məcnun"unda.

Söhbət əsnasında Tahir müəllim musiqimizin dünəni, bugünü barəsində həm ürək dolusu, həm də müəyyən narazılıqlarını açıq şəkildə büruzə verməklə münasibət bildirirdi. Mənim üçün ən maraqlısı o idi ki, Tahir müəllim musiqiçi olduğu ilə daxilən qürrələnir, fəxr edirdi. Çünki o, təkcə musiqini bilən yox, həm də onu yaşadan aydınlarımızdan biridi. Üstəlik, həyatda Azərbaycanın bir-birindən dəyərli musiqiçiləri, xanəndələri, bəstəkarları ilə şəxsi təması, yoldaşlığı, dostluğu olub və davam edir. İstər Süleyman Ələsgərovun, istər Fikrət Əmirovun, maestro Niyazinin, Bülbülün, Rəşid Behbudovun, Arif Babayevin, İslam Rzayevin, Sara Qədimovanın, Əbülfət Əliyevin, Şövkət Ələkbərovanın və daha kimlərin onun yaddaşında xatirəsi, izi yoxdur ki...

Burda mən bir məqamı da əlavə edim ki, 75 yaşını qeyd edən təcrübəli pedaqoq, musiqişünas, publisist Tahir Hacı Əzimin tələbələri də bu gün Azərbaycan musiqisinə yeni nəfəslər gətirməkdədilər. Onların arasında tarzən Malik Mansurov və Elşən Həşimov, Əbdül Həşimov, Yaşar Məmmədov, Vaqif Hacıyev, Salman Baxşıyev, bəstəkarlar Cavanşir Quliyev, Ceyhun Allahverdiyev, aşıq Ulduz xanım və başqalarının adını xüsusi vurğulamaq yerinə düşər.




Bəli, arxada 75 il qalır. Mənalı, şərəfli yaşanmış 75 il. Bu illərin səhifələrində Tahiq müəllim üçün iki ən ağrılı məqam var. Onlardan biri atası Şamilin Böyük Vətən Müharibəsində həlak olmasıdı. Bu gün də yaddaşına yazılmış bir faktı mənə kövrələ-kövrələ danışdı. Dedi ki, bir dəfə yeni, 1975-ci ildə Qələbənin 30 illiyi ilə bağlı keçirilənn görüşdə müharibə veteranı Cənnət Səlimova xatirələrini danışanda bildirdi ki, biz Kerç şəhərində döyüşçülərlə görüşə gedəndə bizi aparan hərbi maşını sürən şuşalı Şamil adlı bir qarayanız oğlan idi. O, bizi düşmənin atdığı bombaların altından məharətlə çıxardı. Amma sonra öyrəndim ki, həmin əsgər qəhrəmancasına həlak olub. Görüşdən sonra mən Cənnət Səlimovaya yaxınlaşıb həmin əsgər barəsində bəzi şeyləri soruşdum. O, mənim kimliyimi biləndə sadəcə məni qucaqlayıb hönkürdü...

Bəli, Tahir müəllimin 75 illik ömür yolunun ikinci ağrılı məqamı da 1992-ci il may ayının 7-dən sonra Şuşaya gedə bilməməsidi. Axı insan yaşlaşdıqca doğulduğu torpaq onu daha çox çəkir. Bunu Tahir müəllim özünəməxsus şəkildə dedi. Amma mən lap əvvəldən öz istəklərimdən çıxış edərək anlamışdım ki, Şuşa havasıyla, Şuşa şövqüylə yaşayan bu musiqi fədaisi Şuşasız qala bilmir.

***P.S. 75 yaşını sakit şəkildə qeyd edən Tahir müəllim bizim söhbətimizi həqiqətən musiqili etdi. O, tarı sinəsinə sıxıb, öncə Sadıxcanın, sonra Qurban Pirimovun, daha sonra Mirzə Mənsur və digər böyük sənət korifeylərinin ruhuna dua oxudu və mənim üçün əsl "Yetim segah" çaldı. Mən ilk dəfə barəsində sənət bilicilərindən eşitdiyim mükəmməl bir "Yetim segah" dinlədim. Necə haldan-hala düşdüyümü hiss edən Tahir müəllim bir anlıq susdu. Deyəsən o da mənimlə birlikdə Şuşaya getmişdi. Susduq, Şuşanı gəzdik və üzü geri qayıdanda bu dəfə Tahir müəllim məni "Rast"a köklədi. Elə bil bu muğamla, yolumuz rast olsun! - deyirdi. Mən belə düşündüm, onu deyə bilmərəm.***

***Ayrılanda ona 75 yaşınız mübarək olsun, deməyi unutdum. Bunu o, ifasıyla mənə unutdurdu. Amma indi tam səmimiyyətimlə onun ifasının, ziyalılığının pərəstişkarı kimi deyirəm:***

***75 yaşınız mübarək, Tahir müəllim!***

***Hələlik, Şuşada görüşənədək...***

**Əbülfət MƏDƏTOĞLU**